# Azərbaycan Avropa İttifaqının önəmli iqtisadi tərəfdaşıdır



"Azərbaycanın "12 plyus Geosiyasi Qrupu"na daxil olan ölkələrlə münasibətləri yüksək səviyyədədir. Bu ölkələrlə bir çox beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq mövcuddur. Bu səfər qurumun Azərbaycanla münasibətlərinin, parlamentlərarası əlaqələrin inkişafına töhfə verəcək".

Bu fikirləri dünən Milli Məclisin Sədri Oqtay Əsədov Parlamentlərarası İttifaqda "12 plyus Geosiyasi Qrupu"nun sədri, portuqaliyalı deputat Duarte Paçeko ilə görüşündə dedi.

Oqtay Əsədov müstəqillik dövründə Azərbaycanın keçdiyi inkişaf yolu ilə bağlı qonaqları məlumatlandırdı. Azərbaycanın dünyəvi, tolerant və multikultural ölkə olduğunu qeyd edən Milli Məclisin Sədri bildirdi ki, Avropa İttifaqı ilə siyasi əlaqələr yüksək səviyyədədir. Eyni zamanda Azərbaycan Avropa İttifaqının önəmli iqtisadi tərəfdaşıdır.

Parlamentlərarası İttifaqda "12 plyus Geosiyasi Qrupu"nun sədri Duarte Paçeko ölkəmizə səfər etməkdən məmnunluğunu bildirərək təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini dedi. Qarşılıqlı səfərlərin parlamentlərarası əlaqələrin inkişafına müsbət təsir edəcəyini vurğuladı.

***Səbinə MƏMMƏDOVA,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 30 yanvar.- S.6.